

Vasif ƏLİHÜSEYN

## BİZİM UŞAQLIQ XATİRƏLƏRİMİZ

İçimizdə o qədər böyümək həvəsi var idi,
həmişə böyük adamların əyninə paltar alırdıq.
Evdə deyirdilər ki, gələn il də geyərsiniz...

Əynimizdəki köynəklərin qolları qısaldıqca
biz də böyüyürdük,
bir az da ömrümüz qısalırdı, köynək qolları
kimi...

Nə yaxşı həftəsonu var idi,
dəyişəyi olmayan paltarları yumaq üçün...

Yazıq anamın dırnaqları su çəkmişdi
paltar yumaqdan,
bir də palçığa bələdiyimiz "daroşqa"ların
üstündə
rezin çəkməylə "şaqat" eləyirdi yazıq qadın...

İndi o "daroşqa"ların üstündə
o qədər iz var ki:
bizim uşaqlıq xatirələrimiz
    və bir də anamın ayaq izləri...

## ONDA DAHA BÖYÜK GÖRÜNÜRDÜK

Gözəl uşaqlığımız vardı
kəndimizdə.
Park nə idi, bilmirdik,
qoyun nobatında
oxuyardıq dərsimizi.

Onda nənəm, babam sağ idi,
o qədər qoca vardı
kəndimizdə;
qocaların hesabına
uca idi kəndimiz də...

Onda pulsuz vaxtlarımız var idi...
Bizə də öyrətmişdilər
cibi boş kişilərin
nisyə siqaret almağını.

Onda daha böyük görünürdük,
atamız, anamız arxamızda gizlənəndə,
işıq pulu yığanlara:
– Evdə heç kim yoxdu – deyəndə.

Atamın sağ əli üçün
aldığı təqaüd də bir işə yaramırdı,
deyirdi, bu nə puldu
tək qolla yaşayan adam üçün?..

İndi hamımız təkik,
atamın sol əli kimi...

## QADINSIZ KİŞİLƏR ÇƏKDİYİ

Arvadı ölmüş kişilərin
başına daş düşüb kəndimizdə...

Oturub məzar başında
qadınını vurduğu
əlləriylə silərlər göz yaşlarını...

İndi bilərlər
qadını ölmüş evlərdə
kişilərin lazımsız olduğunu...

dünyanın ən böyük işgəncəsidi...
bir qadını ölmüş küçənin
evin və bir də kişinin çəkdiyi...

## SƏN ƏN BÖYÜK TƏSƏLLİMSƏN

Sən ən böyük təsəllimsən,
gəlmisən məni sevməyə.
Axı nə yaşın vardı
mənimlə dərd çəkməyə.

Bir qucaqlıqdı boyun,
saçın nə gözəl ətirdi.
Təkliyimdən gileyləndim,
Allahım səni gətirdi.

Belədi dünyanın işi,
hönkürüb ağlamaq olur,
kimisə itirəndə
kimisə qucaqlamaq olur.

## BİRCƏ SƏN OL YANIMDA

Sən heç kimə oxşama,
necəsən, elə də qal.
Üşüyürəm soyuqda,
mənə bir cüt əlcək al.

Heç kim bilməz bu zülmü,
ömrüm sənə sürünür.
Evdə hər şeydən yaxşı
sənin yerin görünür.

Nə ad qoysun adamlar
mənim kimi axmağa?..
Bir cüt göz saxla mənə,
darıxanda baxmağa.

Qoyma qoltuqda qalım,
kiməsə möhtac olum.
Bircə sən ol yanımda,
razıyam ki, ac olum.

## QATARDA YOL GEDƏN KOR SƏRNİŞİNƏM

Əllərin buzdumu, belə soyuqdu,
donub qollarında o buza qalıb.
Deyirlər, sabah da günəş çıxacaq,
hamının ümidi ulduza qalıb.

Nədir cəriməsi sənə baxmağın,
adam da qəbrinə aparır ağın.
Suları üstündən gedən torpağın
indi hər tərəfi qır duza qalıb.

Bir ocaq da yoxdu dondum, isinəm,
çalın-çarpaz dağdı dağ görən sinəm.
Qatarda yol gedən kor sərnişinəm,
ümidim bircə yol o qıza qalıb.

## SƏNİN DUALARIN

Əsgər oğluyla
eyni saatda oyanar
kəndimizdə anam.

Cəbhədəki atışma səsləridi
ürəyindəki çırpıntılar.

Səngərlər insan boyunda qazılmış
alın yazısıdı –
kimi ölümə gedər,
kimi evinə.

Anaların namaz üstə olduğu
bir vaxta
yayınar güllələr.

Sənin duaların
düşməni cavab atəşiylə
susdurmaqdı, ana!

